# Tsinxua Universiteti

Tsinxua Universiteti (Tsinghua University) Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində yerləşir və ölkənin ən yaxşı ali təhsil ocaqlarından biridir. Ali məktəb Böyük Britaniyanın "The Times Higher Education World Reputation" jurnalının 2016-cı il reytinqində 18-ci, "QS World Universities Rankings" jurnalının 2015-2016-cı il sıralamasında 25-ci, 2016-cı il üzrə Asiya universitetləri reytinqində 5-ci, ölkə ali məktəblərinin milli sıralamasında isə 2-ci yeri tutub. Tsinxua Universiteti Çin universitetlərini birləşdirən "C9 Liqası"na daxildir. Nail olduğu yüksək elmi-texnoloji potensialına görə ali məktəbi ABŞ-ın nüfuzlu universitetlərindən olan Massaçusets Texnologiya İnstitutu (MİT) ilə müqayisə edir və "Çinin MİT-i" adlandırırlar.

**Yerləşir:** ÇXR, Pekin şəhəri
**Yaranma tarixi:** 1911-ci il
**Tipi:** Dövlət
**Akademik heyət:** 7499 nəfər
**Tələbələrin ümumi sayı:** 45237 nəfər
**Rəsmi saytı:** www.tsinghua.edu.cn





*Universitetin Şvartsman Məktəbinin tələbəsi Rza Əliyev*



*Universitetin rəsədxanası*



*2016-cı ilin məzunları*

## Tarixi

1911-ci ildə Pekin şəhərində öncə Min, sonra isə Tsin kral sülaləsinə məxsus bağda Tsinxua Kolleci (Tsinghua Xuetang) yaradılır. Bu kollec dövlət tərəfindən ABŞ-a təhsil almağa göndərilən gənclərin oxumağı üçün ilkin mərhələ rolunu oynayır. Kollecin professor-müəllim heyətini də ABŞ-dan dəvət olunmuş şəxslər təşkil edirdilər. 1912-ci ildə kollec Tsinxua Məktəbi adlandırılır.

1928-ci ildə məktəbin adı hökumət tərəfindən rəsmi olaraq dəyişdirilərək Tsinxua Milli Universiteti olur. İkinci Dünya müharibəsi dövründə Çinin Pekin, Nankin, Tsinxua universitetləri, daha sonra isə Kunmin əyalətində yerləşən Birləşmiş Cənub-Qərbi Milli Universiteti Çanqşa şəhərində Çanqşa Müvəqqəti Universiteti adı altında birləşdirilir. Müharibədən sonra Tsinxua Universiteti Pekinə qaytarılır və fəaliyyətini davam etdirməyə başlayır.

1949-cu ildə Çində vətəndaş müharibəsi zamanı kommunist çevrilişindən və Çin Xalq Respublikasının yaradılmasından sonra Tsinxua Universitetinin prezidenti Mey Yi-Qi və bir neçə professor Tayvana qaçır və orada 1955-ci ildə Tayvanın Milli Tsinxua Universitetini yaradırlar.

1952-ci ildə Çin Xalq Respublikası hökuməti sovet təhsil sisteminə uyğun olaraq ali məktəbləri xüsusi ixtisaslaşmış ayrıca institutlara bölür. Hüquq, kənd təsərrüfatı, dəqiq və humanitar elmlər Tsinxua Universitetindən alınır və ali məktəb politexnik yönümlü universitetə çevrilir. Universitet texniki elmlərin inkişafına görə çox uğurlar qazanır. Lakin 1980-ci ildən sonra burada fənlərarası proqramlar tətbiq olunmağa başlayır. Nəticədə bir neçə məktəb yenidən bərpa edilir, eləcə də yeniləri yaranır (Elmlər, Biznes və Menecment, Humanitar və Sosial Elmlər, Hüquq, Dövlət Siyasəti və İdarəetmə məktəbləri, Dizayn və İncəsənət Akademiyası).

## Universitet bu gün

Tsinxua Universitetinin kampusu Pekin şəhərinin şimal-qərbində universitetlər və digər akademik müəssisələr üçün nəzərdə tutulmuş Haydyan rayonunda 395 hektar ərazidə yerləşir. Tsin kral sülaləsinə məxsus bağda tikilmiş kampusda Çin memarlıq nümunəsinə aid binalar, Çin üslubunda salınmış bağ və parklar mövcuddur. Burada ilk vaxtlar Amerika məktəbi fəaliyyət göstərib, bu da kampusun binalarının rəngarəngliyinə təsir edib. Şəhərcikdə Qərb memarlıq üslubuna aid çoxlu sayda tikili var. Urban-Şampeyndəki İllinoys Ştatı Universitetinin (ABŞ) 1914-cü ildə məzunu olmuş T.Çuanq Tsinxua Universiteti şəhərciyinin tikintisində iştirak və işində Amerika memarlıq üslubuna müraciət edib.

Tsinxua Universitetinin simvolu qədim darvazadır. Kampusun ən məşhur yerlərindən Qonq Zi Tinq kral imarətini, Hi Tanq Yu Se (Ay işığı düşən göl), Böyük auditoriya, Tsinxua rəsədxanasını, Tsinxua Elm parkını nümunə göstərmək olar. "Forbes" jurnalı 2010-cu ildə Tsinxua Universitetinin kampusunu dünyanın ən gözəl universitet şəhərciklərindən biri kimi dəyərləndirib. Bu ali məktəb həmin siyahıda adı olan yeganə Asiya universitetidir.

Tsinxua Universitetinə aid bütün akademik, inzibati, yaşayış binalarının hamısı kampusda yerləşir. Yalnız universitetin Pekin şəhərinin şimalındakı Nüvə və Yeni Enerji Texnologiyaları İnstitutu istisna təşkil edir. Hazırda universitetdə 12 kollec, 48 bölmə, 41 elmi-tədqiqat institutu, 35 elmi-tədqiqat mərkəzi, 167 laboratoriya, 15 aparıcı milli laboratoriya fəaliyyət göstərir. Tsinxua Universiteti aşağıdakı məktəb və fakültələrdən ibarətdir: Memarlıq Məktəbinin nəzdində Memarlıq, Şəhərsalma və layihələşdirmə, Tikinti elmləri, Landşaft arxitekturası departamentləri fəaliyyət göstərir. Mülki Mühəndislik Məktəbində Mülki, Hidravlik mühəndisliyi, Tikinti İdarəetməsi departamentləri mövcuddur. Maşınqayırma Məktəbində Mexanika mühəndisliyi, Dəqiq cihazlar və maşınqayırma, İstilik, Avtomotiv, Sənaye mühəndisliyi departamentləri vardır. Kosmos Məktəbinin nəzdində Mühəndislik mexanikası, Aeronavtika və Astronavtika departamentləri, İnformasiya Elmləri və Texnologiya Məktəbində Elektronika mühəndisliyi, Kompüter elmləri və Texnologiya, Avtomatlaşdırma, Mikroelektronika və Nanoelektronika departamentləri, Software (Proqram Təminatı) Məktəbi, Mikroelektronika İnstitutu fəaliyyət göstərir. Elmlər Məktəbinə Riyaziyyat elmləri, Fizika, Kimya departamentləri daxildir. Humanitar və İctimai Elmlər Məktəbində Fəlsəfə, Çin dili və ədəbiyyatı, Xarici dillər, Tarix, Sosiologiya, Siyasi elmlər, Beynəlxalq əlaqələr, Psixologiya departamentləri mövcuddur. İqtisadiyyat və İdarəetmə Məktəbinə İdarəetmə elmləri və mühəndislik, İqtisadiyyat, Maliyyə, Mühasibatlıq, İnnovasiya və sahibkarlıq, İnsan resursları və təşkilatçılıq, Biznes strategiyası və siyasət, Marketinq departamentləri daxildir. Tibb Məktəbinin nəzdində Tibb, Əczaçılıq elmləri, Biotibbi mühəndislik departamentləri fəaliyyət göstərir. Jurnalistika və Kommunikasiya Məktəbi 2002-ci ildə yaradılıb. Məktəbdə Beynəlxalq Kommunikasiya, Yeni Media Tədqiqatları, Film və Televiziya, Media İdarəetmə və Mədəni Sənaye Elmləri mərkəzləri fəaliyyət göstərir. İctimai Siyasət və İdarəetmə Məktəbi MA, Ph.D, MPA, MID akademik proqramları təklif edir. Məktəbin Beynəlxalq Strategiya və İnkişaf, Tayvan Tədqiqatları, İctimai siyasət, Hökumət institutları, Çin tədqiqatları, NGO elmi-tədqiqat mərkəzləri mövcuddur. Hüquq Məktəbində Kommersiya hüququ, Mülki hüquq, Hüquqi Norma və İnsan Haqları, İntellektual mülkiyyət hüququ, Konstitusiya qanunu və Mülki hüquq, Beynəlxalq hüquq, Tsinxua hüquq jurnalı və digər mərkəzlər fəaliyyət göstərir. Təbiət Elmləri Məktəbi Biofizika və Struktur biologiyası, Hüceyrə və inkişaf biologiyası, Halobois, Daxili institutlardan, Biomembran və membran biotexnologiyası, Antişiş zülalı terapevtik texniki, Pekin aparıcı protein laboratoriyalarından, Eksperimental biologiya mərkəzindən ibarətdir. İncəsənət və Dizayn Akademiyası İncəsənət tarixi, Sənaye dizaynı, Ekoloji incəsənət dizaynı, Keramika dizaynı, Vizual əlaqələndirmə dizaynı, Tekstil və moda dizaynı, İncəsənət və sənətkarlıq, Rəssamlıq, Heykəltəraşlıq, İncəsənət və Dizayn informasiyası departamentlərindən ibarətdir.

Yuxarıda sadalananlarla yanaşı, Tsinxua Universitetində Marksizm məktəbi, Elektrik mühəndisliyi, Fizika texnologiyası, Kimya texnologiyası, Fiziki təhsil departamentləri fəaliyyət göstərir. Universitet yüksəksürətli intetrnet şəbəkəsi ilə təmin olunub. Ali məktəbin bütün institutları, fakültələri, tələbə yataqxanaları, bütövlükdə 24 min kompüter intetrnetə qoşulub.

Qeyd edək ki, universitetdə 2013-cü ildən Şvartsman Məktəbi fəaliyyət göstərir. Dünyanın ən nüfuzlu milyarderlərindən Stiven Şvartsmanın təsisçisi və rəhbəri olduğu məktəbin tədris plan və proqramları Harvard, Yel, Oksford, Prinston, Stenford kimi dünyanın ən nüfuzlu universitetləri ilə akademik əməkdaşlıq nəticəsində yaradılıb. Hər il Amerika, Çin və digər ölkələrdən 200 nəfərin təhsil ala biləcəyi məktəbin əsas məqsədi beynəlxalq münasibətlər, menecment, biznes kimi əsas sahələrdə dünya liderləri hazırlamaqdır. 2016-cı ilin yanvarında məktəbə dünyanın 135 ölkəsindən 3000 namizəd arasından 100 ən istedadlı tələbə qəbul olunub. Çox sevindirici haldır ki, onlardan biri Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı Rza Əliyevdir. Qeyd edək ki, proqramın əsas məqsədi Çinin sürətlə artan iqtisadiyyatını öyrənən və XXI əsrin aktual problemlərini təhlil edə bilən mütəxəssislər hazırlanmasından ibarətdir. Məktəbin qəbul komissiyasının direktoru Rob Harrisin sözlərinə görə, "Seçilmiş 100 alim gələcək dünya siyasətinə təsir edən liderlər şəbəkəsini genişləndirəcəkdir".

Tsinxua Universitetinin kitabxana sisteminə 4.79 milyon cilddən çox kitab, 350 min qədim kitab, qəzet, 70 min mikroforma, 30 min dissertasiya, eləcə də 7 milyondan çox elektron kitab, 67000 elektron jurnal və s. daxildir. Universitetin kitabxanası 1912-ci ildə yaradılıb, 1994-cü ildə isə kitabxananın yeni binası istifadəyə verilib. Hazırda kitabxana kampusda 61600 min kv.m ərazini əhatə edir. 1990-cı ildən başlayaraq kitabxana avtomatlaşdırma və şəbəkəyə çıxış üzrə böyük nailiyyətlər əldə edib.

Bir sıra dünya liderləri Tsinxua Universitetinin fəxri doktorlarıdır və burada mühazirələrlə çıxış ediblər. Həmin şəxslərdən Bill Klintonu, Toni Bleyeri, Henri Kissinceri, Karlos Qosnu, Henri Polsonu qeyd etmək olar.

Tsinxua Universiteti özünün yüksək elmi səviyyəsi və təhsil keyfiyyəti ilə dünyada xüsusi nüfuza malikdir. Tsinxua Universitetinin gələcək strateji məqsədi Çində kadr və sosial-iqtisadi problemləri aradan qaldırmaq üçün yeni çoxprofilli təhsil və elmi proqramlar həyata keçirmək, innovasiya tipli nəhəng elmi-tədqiqat mərkəzinə çevrilməkdir. Şüarı "Şəxsi intizam və ictimai məsuliyyət", əzmi isə "Fəaliyyət sözlərdən daha uca danışır" kəlmələrindən ibarət olan Tsinxua Universiteti özünü Çin cəmiyyətinin rifahı və dünya elminin inkişafına həsr edib.

## Büdcəsi və təhsil haqqı

XXI əsrin çağırışlarını nəzərə alan universitet elmi tədqiqatların çoxşaxəliliyinə, tədrisin çoxprofilliliyinə, dünyanın lider ali məktəbləri arasında yer almağa çalışır. Universitetdə akademik heyət və inzibati işçilərin ümumi sayı 7499 nəfərdir. Onlardan 2133 nəfər (28,44 faiz) müəllimlər, 1064 nəfər (18,45 faiz) professorlar, 1813 nəfər dosentlər (31.44 faiz), 24 nəfər Çin Elmlər Akademiyasının akademikləri, 25 nəfər Mühəndis Texnik Elmlər Akademiyasının üzvləridirlər. 2015-2016-cı tədris ilində universitetdə 45237 tələbə təhsil alıb. Onlardan 15692 nəfər bakalavr, 29545 nəfər isə magistr və doktorantlardır. Əcnəbi tələbələrin sayı 17 faiz təşkil edir. Ali məktəb 51 bakalavr, 139 magistr və 107 fəlsəfə doktoru hazırlığı proqramları təklif edir.

Tsinxua Universitetində illik təhsil haqları ixtisas və təhsil səviyyələri üzrə dəyişir. Bakalavr səviyyəsində illik təhsil haqları 4000-6000 dollar təşkil edir. Magistratura səviyyəsində təhsil 6000 dollardır. Əcnəbi tələbələr üçün bakalavr və magistr səviyyələrində təhsil haqqı ildə 4000-6000 dollardır. Universitetin aspiranturasına qəbul çox çətindir. Hər il sənəd verən tələbələrin yalnız 16 faizi təhsilin bu pilləsinə qəbul oluna bilir. Universitetdə 12 kollec, 48 bölmə, 41 elmi-tədqiqat institutu, 35 elmi-tədqiqat mərkəzi, 167 laboratoriya, 15 aparıcı milli laboratoriya fəaliyyət göstərir. Ali məktəb 51 bakalavr, 139 magistr və 107 fəlsəfə doktoru hazırlığı proqramları təklif edir. Bu ali təhsil ocağında 1000-ə qədər əcnəbi tələbə yerləşdiriləcək yataqxanalar mövcuddur. Yataqxanalarda İnternet, telefon, kondisioner, televizor və s. avadanlıqlarla təchiz edilmiş bir, iki və daha çox nəfərlik otaqlar tələbələrin istifadəsinə verilib. Otaqların 1 sutkalıq qiyməti 40-100 yuan arasında dəyişir. Kampusda tələbələrə tibbi xidmət göstərilir. Tibbi sığortanın 1 illik qiyməti 600-1000 yuandır. Universitetin prezidenti Qiu Yonqdur.

## Gələcəyə baxış

Ali təhsilin fasiləsiz inkişafı ilə əlaqədar qlobal tələbə proqramlarının keyfiyyətinin və sayının artması bütün dünyada universitetlərin qlobal inkişaf göstəricilərində mühüm əhəmiyyət kəsb edir. Qlobal təhsil sahəsində strategiyanı həyata keçirmək məqsədilə Tsinxua Universiteti dünyanın nüfuzlu ali məktəbləri, elmi-tədqiqat institutları ilə əməkdaşlıq əlaqələrini inkişaf etdirir, beynəlxalq tələbə və müəllim mübadiləsində fəal iştirak edir.

Universitetə ilk dəfə 1950-ci ildə Şərqi Avropa ölkələrindən 14 tələbə qəbul olunub. Son 60 ildə onların sayı 30 mini keçib. 2015-ci ildə universitetdə magistr və ya doktorluq dərəcəsi üzrə 119 ölkədən 3380 beynəlxalq tələbə təhsil alıb. Onların çoxu Harvard, Stanford, Yel, Berkli Kaliforniya, Oksford, Kembric, Massaçusets Texnologiya İnstitutu kimi dünya şöhrətli universitetlərin məzunlarıdırlar. Onlardan 79 faizi bakalavr, magistr və ya doktorantura səviyyələrində təhsil alıb və ya birgə elmi tədqiqatlarda iştirak edib. Əcnəbilərin bir qismi Çin dilini öyrənməyə cəlb olunub. 2016-2017-ci tədris ilində də universitet beynəlxalq tələbələrə 39 bakalavr, 100 magistr və 82 doktorluq proqramları təklif edir. 13 magistr proqramı tamamilə ingilis dilində tədris olunur. Bundan başqa, ingilis dilini öyrənmək istəyənlər üçün 300-ə yaxın tədris kursları var.

Əcnəbi tələbələrin 63 faizi Asiya, 19 faizi Avropa, 11 faizi Şimali Amerika, 3 faizi Afrika, 2 faizi isə Cənubi Amerika və Okeaniya ölkələrinin payına düşür.

Ali məktəbin elmi işçilərinin beynəlxalq mübadiləsində iştirakı da universitetin inkişafında mühüm faktordur. Əcnəbi alimlərin Tsinxua Universitetinə ilk gəlişi ali məktəbin təsis olunduğu ilə təsadüf edir. Son vaxtlara kimi xaricdən 11 mindən artıq alim universitetə dəvət alıb. Xüsusilə də son 30 ildə əcnəbi alimlərin Tsinxua Universitetinə gəlişi güclənib. Təkcə 2015-ci ildə mübadilə, tanışlıq və ya ziyarətçi qismində 1700 əcnəbi alim ali məktəbdə olub. Əcnəbi alimlər birgə tədqiqatların aparılması və mühəndis hazırlığı proqramlarına maraq göstəriblər. Tsinxua Universiteti qloballaşan dünyada nüfuzlu ali təhsil, beynəlxalq təşkilat və müəssisələrlə strateji tərəfdaşlıq və əməkdaşlığın inkişafına mühüm əhəmiyyət verir. Universitet yüksək səviyyəli akademik mübadilə, birgə proqramlar, beynəlxalq konfranslar və digər beynəlxalq fəaliyyətə sponsorluq edir.

Universitet Çin hökumətinin 2008-ci ildə icrasına başladığı "1000 istedad proqramı"nda da fəal iştirak edir. Xarici professorların cəlb olunmasını nəzərdə tutan bu proqram Tsinxua Universitetinə əcnəbi mütəxəssislərin iştirakı ilə həm fundamental, həm də tətbiqi elmləri inkişaf etdirməyə imkan verir.

## Məşhur məzunları

Ötən 100 il ərzində Tsinxua Universiteti elm və texnikanın, iqtisadiyyat, idarəetmə, humanitar elmlər, qanunvericilik, incəsənət və tibbin müxtəlif sahələri üzrə ciddi uğurlar əldə edərək nüfuzlu elm və təhsil ocağı kimi Çinin inkişafına öz töhfələrini verib.

Universitetin 170 mindən artıq məzunu arasında dövlət xadimləri, nüfuzlu sahibkarlar, görkəmli alimlər var. Onlardan Hu Szintao (Çin Xalq Respublikasının 6-cı sədri), Si Szinpin (Çin Xalq Respublikasının indiki prezidenti), Çju Ronqji (Çin Xalq Respublikasının sabiq baş naziri), Tzya Çunvanq (Çinin sabiq dövlət təhlükəsizliyi naziri), Tsunq-Dao Li (fizika üzrə Nobel mükafatı laureatı), Yanq Çen Ninq (fizika üzrə Nobel mükafatı laureatı), Şinq-Şen Çern (riyaziyyat üzrə Vulf mükafatı laureatı), Lyan Qiçao (alim, jurnalist, filosof, islahatçı), Syan Çjunşunun (məşhur Çin yazıçısı) adlarını çəkmək olar. Universitetin məzunları arasında 84 milyarder var. Onların ümumi sərvəti 300 milyard yuanı keçib. Universitetin məzunlarından 407 nəfər Çin Xalq Respublikası Elmlər Akademiyasının və Mühəndis Texnik Elmlər Akademiyasının akademikdir. Bu isə ölkənin bütün akademiklərinin 1/4-ni təşkil edir.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*